


# Azərbaycan Avstraliyanın Lalə Festivalında

**Hər il payızda Avstraliyanın Melburn şəhəri yaxınlığında yerləşən Silvan qəsəbəsində Tesselaar Lalə Festivalı keçirilir. Bu il Azərbaycan festivalda ilk dəfə rəsmi şəkildə təmsil olunub. Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Avstraliya-Azərbaycan Assosiasiyaları Alyansının təşkilatçılığı ilə Avstraliyanın müxtəlif şəhərlərində yaşayan Azərbaycan diasporunun nümayəndələri xüsusilə seçiliblər.**

1955-ci ildən keçirilən bu ənənəvi tədbir ölkənin ən məşhur bayramıdır. Festivalın keçirilməsi bu ərazidə təsərrüfatla məşğul olan hollandiyalı mühacirlər – Cees və Johanna Tesselaarın adı ilə bağlıdır. Belə ki, Hollandiyadan Avstraliyaya mühacirət edən ailə 1939-cu ildə Silvan qəsəbəsində gülçülüklə məşğul olmağa başlayıb. Zamanla təsərrüfatlarını böyüdərək əkdikləri lalələrlə məşhurlaşıblar. Bu tədbir illər ərzində genişlənərək Avstraliyanın ənənəvi festivallarından birinə çevrilib.

Şənliklərin keçirildiyi ərazidə hər il 1 milyondan çox lalə çiçək açır. Sərgidə yüzlərlə növ lalə, dekorativ gül bağçaları və fotoqrafiya üçün ideal mənzərələr ziyarətçilərə təqdim olunur. Festival, eyni zamanda multikultural mədəniyyət bayramıdır. Burada müxtəlif ölkələrin milli günləri keçirilir, musiqi, rəqs, geyim və mətbəx nümunələri nümayiş edilir.

Festival çərçivəsində Azərbaycana aid guşədə ölkəmizin zəngin mədəni irsindən, milli musiqisindən və rəqs sənətindən nümunələr ziyarətçilərə təqdim olunub. “AYTAY” musiqi və “ADENA” rəqs qrupunun çıxışları tamaşaçılarda xoş təəssürat yaradıb. Azərbaycan pavilyonunda milli mətbəximizdən seçmələr ziyarətçiləri ölkəmizin zəngin kulinariya ənənələri ilə tanış edib.

***Fidan ƏLİYEVA***
***XQ***

Xalq qəzeti.- 2025.- 17 sentyabr, №198.- S.14.